**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**MƏNSİMZADƏ İLQAR AKİF OĞLU**

# İNFORMASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏ ƏSASINDA KƏND TƏSƏRRÜFATINDA BİZNESİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

**5312.01 – “Sahə İqtisadiyyatı”**

iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

## A V T O R E F E R A T I

**Bakı – 2017**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Gəncəli Əziz oğlu Gənciyev**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor, Əməkdar elm xadimi
**Əli Qəmbərəli oğlu Əlirzayev**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Laçın Vəzir oğlu Abışlı**

**Aparıcı Təşkilat:** **Azəhbaycan Texnologiya Universitetinin "İnformatika və telekommunikasiya" kafedrası**

Müdafiə "___" ______________ 2017-ci il tarixdə saat _____-da Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.018 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: AZ 1148, Bakı şəhəri, Akademik Zahid Xəlilov küçəsi, 23.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" ______________ 2017-ci ildə göndərilmişdir.

**FD. 02.018 birləşdirilmiş dissertasiya şurasının elmi katibi, i.ü.f.d.** **H.S.Şamilova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir şəraitdə ölkəmizdə qeyri-neft sektorunun və regionların inkişafına xüsusi diqqət yetirildiyi bir vaxtda kənd təsərrüfatının inkişafı əsas istiqamətlərdən biri olaraq qalır. Çünki istənilən ölkənin iqtisadi təhlükəsizliyi birbaşa kənd təsərrüfatının davamlı inkisafindan asılıdır. Aqrar sahənin iqtisadi səmərəliliyinin intensiv amillər hesabına yüksəldilməsində elm və texnikanın son nailiyyətlərindən istifadə edilməsi praktiki tədbirlər sistemində mühüm yer tutur. Aqrar sahə tarixən ölkə iqtisadiyyatının aparıcı sahələrindən biri olmaqla, əhalinin kənd təsərrüfatı və ərzaq məhsulları, sənaye və digər sahələrinin xammala olan tələbatının ödənilməsində başlıca rol oynamışdır.

Azərbaycan Republikasının prezidenti İ.H.Əliyev cənabları öz məruzəsində Kənd Təsərrüfatının ölkənin ixrac potensialındakı rolunu belə ifadə etmişdir: "Gələcəkdə Azərbaycan iqtisadiyyatının hərəkətverici qüvvəsi ixrac potensialının artırılması olacaqdır. Əlbəttə bu strateji məqsədə nail olmaq üçün kənd təsərrüfatında İKT əsasında biznes fəaliyyətinin daha səmərəli imkanlarından istifadə olunmalıdır". Bir cəhəti də vurğulamaq lazımdır ki, son dövrdə ölkə prezidenti İ.H.Əliyev cənablarının bir sıra rayonlarda keçirdiyi müşavirələrdəki çıxışlarında kənd təsərrüfatında sahibkarlıq və biznesin inkişafına xüsusi diqqət yetirilməsi, xarici bazarlara çıxış üçün elektron ticarətin üstünlüklərindən istifadə olunması mühüm vasitə kimi irəli sürülmüşdür.

Məlum olduğu kimi, müasir dünyanı informasiya texnologiyalarından (İT) təcrid olunmuş təsəvvür etmək mümkün deyildir. Bir çox inkişaf etmiş ölkələr İnformasiya-Kommunikasiya Texnologiyalarının (İKT) tətbiqi nəticəsində böyük nailiyyətlər əldə etmişlər və beləliklə də, inkişafa aparan yolun İKT-nin cəmiyyətdə geniş tətbiqindən keçdiyi artıq heç bir şübhə doğurmur. Dünya təcrübəsi göstərir ki, İKT-dən geniş istifadə olunması ölkənin hərtərəfli inkişafına xidmət edir və məhz bu texnologiyalar əhalinin sosial-iqtisadi vəziyyətində mövcud olan problemlərin həll olunması və yoxsulluğun azaldılması üçün tutarlı vasitələrdəndir. Dünya bazarında elektron kommersiyanın (e-kommersiya) rolunun artdığı müşahidə olunur və ümumiyyətlə, gələcəkdə ölkələrin rəqabət aparmaq qabiliyyəti onların İKT-dən səmərəli istifadəsindən asılı olacaqdır. Ona görə də e-kommersiyanın tətbiqi və inkişaf xüsusiyyətlərinin hərtərəfli tədqiqi mühüm əhəmiyyətə malikdir.

Dissertasiya işinin mövzusunun aktuallığını və onun seçilməsini səciyyələndirən arqumentlərə aşağıdakıları aid etmək olar:

- ölkə iqtisadiyyatının inkişafında kənd təsərrüfatı istehsalının aparıcı rola malik olması;

- yüksək keyfiyyətli kənd təsərrüfatı məhsullarının istehsalının ölkənin ixrac potensialının əsasını təşkil etməsi;

- kənd təsərrüfatında məhsulların keyfiyyətinin artırılmasında intensiv amillərin rolunun artırılması, xüsusilə İKT-nin üstünlüklərindən istifadə olunması;

- kənd təsərrüfatında fermerlərin elektron qeydiyyat sisteminin, aqroparkların, loqistika mərkəzlərinin yaradılmasının zəruriliyi;

- kənd təsərrüfatına aid olan torpaqların elektron uçot sisteminin formalaşması və onun üstünlüklərindən istifadə olunması;

- kənd təsərrüfatı məhsullarının elektron ticarət sisteminin yaradılması və ondan səmərəli surətdə istifadə olunması;

- keyfiyyətli kənd təsərrüfatı məhsullarının xarici bazarlara (əmtəə birjalarına) çıxışına əlverişli şərait yaradılması.

İKT-dən istifadə nəticəsində informasiya ən çox fayda verən əmtəəyə çevrilir. İnformasiyaya, biliyə giriş imkanının olması cəmiyyətin inkişafı üçün həlledici əhəmiyyətə malikdir. Təbii ki, İKT ən zəruri həyati tələbat malları siyahısında birinci deyildir. Lakin biliyə, informasiyaya, İKT-yə lazımi girişin olması ilə zəruri tələbat mallarını əldə etmək çox asanlaşır.

Artıq müasir şəraitdə yeni elmi biliklər və innovasiyalar kənd təsərrüfatı istehsalının və bütövlükdə aqrar sahənin iqtisadi inkişafının əsas elementlərinə çevrilməkdədir. Danılmaz bir həqiqətdir ki, müasir kənd təsərrüfatı istehsalının səmərəliliyi təkrar istehsal prosesinin bütün fazalarında innovasiya texnologiyalarının tətbiqi səviyyəsindən xeyli dərəcədə asılıdır. Bu mənada, aqrar münasibətlərin formalaşması və həyata keçirilməsində elektron kommersiya, qlobal İnternet şəbəkəsi və digər İKT-dən istifadənin mənimsənilməsinin əsaslandırılması və müvafiq tövsiyələrin hazırlanması ciddi nəzəri və praktik əhəmiyyət kəsb edir.

Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasının reallaşmasında aqrar bölmədə innovativ milli iqtisadi biznesin formalaşması mühüm əhəmiyyət kəsb edir. Kənd təsərrüfatında innovativ milli biznesin formalaşması ölkənin milli iqtisadi gücünün və mənafelərinin səmərəli formada reallaşması istqamətlərini müəyyən edir. Ölkədə Milli İnnovasiya (MİS) Sisteminin yaradılması innovativ milli iqtisadiyyatın yeni strateji istiqamətlərini müəyyən edir. Innovativ milli biznes inkişaf etdikcə innovasiya bazarında iştirak edən subyektlərin sayı artır və onların innovativ rəqabət prosesində fəaliyyəti daha da genişlənir. Bu proses iqtisadiyyatın bütün sferalarında olduğu kimi kənd təsərrüfatında olan İKT-nin üstünlüklərindən istifadə olunmasına əlverişli şərait yaradır.

Hazırda ölkəmizdə kənd təsərrüfatında internetin imkanlarından istifadə, elektron kommersiyanın tətbiqi ilə əlaqədar əsaslı qanunvericilik bazası yaradılmış, müvafiq dövlət proqramları qəbul edilmiş və bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. İdarəetmədə şəffaflığın və səmərəliliyin artırılmasının mühüm vasitəsi kimi elektron hökumətin fəaliyyətinin genişləndirilməsi siyasətinə uyğun olaraq, "Elektron kənd təsərrüfatı" sisteminin yaradılması istiqamətində də qısa müddət ərzində geniş miqyaslı işlər görülmüşdür. "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 aprel tarixli Fərmanının 6.3-cü bəndinin icrasına uyğun olaraq aqrar sahədə "Elekron Kənd təsərrüfatı" İnformasiya Sisteminin təşkili, fəaliyyəti və bu sistemin digər dövlət informasiya sistemləri və ehtiyatları ilə inteqrasiyası məsələlərinin tənzimlənməsi məqsədilə Nazirlər Kabinetinin 30 dekabr 2014-cü il tarixli Qərarı ilə "Elektron Kənd təsərrüfatı" İnformasiya Sistemindən istifadə Qaydaları" təsdiq edilmişdir. Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli qərarı ilə təsdiq edilmiş "Elektron xidmət növlərinin Siyahısı"na uyğun olaraq hazırda Kənd Təsərrüfatı Nazirliyi tərəfindən göstərilən 19 elektron xidmət "Elektron hökumət" portalına inteqrasiya edilmişdir. Kənd Təsərrüfatı Nazirliyinin analitik potensialının gücləndirilməsi, aqrar sahə üzrə informasiya bazasının təkmilləşdirilməsi məqsədilə aqrar sektorun müxtəlif istiqamətləri üzrə elektron xidmətlərin təşkili və elektron kənd təsərrüfatı sisteminin qurulmasının ilkin mərhələsi kimi İnformasiya texnologiyalarının tətbiqi və elektron idarəetmə şöbəsi yaradılmışdır.

Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə strateji yol xəritəsində bir daha vurğulanır ki, ölkədə qlobal informasiya cəmiyyətinin bir hissəsi olan elektron ticarətin beynəlxalq normalara uyğun infrastrukturunun hüquqi bazasının inkişafı təmin olunmaqla, yerli məhsul və xidmətlərin xarici bazarlara çıxışının elektron ticarət vasitəsilə həyata keçirilməsi təşviq ediləcəkdir.

Strateji yol xəritəsində irəli sürülən mühüm vəzifələr kənd təsərrüfatında elektron ticarət sisteminin formalaşmasına, sahibkarlıq və biznes fəaliyyətinin daha da genişlənməsinə öz müsbət təsirini göstərəcəkdir. Xüsusilə, kənd təsərrüfatında fəaliyyət göstərən bütün təsərrüfat subyektlərinin İKT-nin bütün üstünlüklərindən istifadə etməklə bir-biri ilə qarşılıqlı əlaqələri yaranacaq və bütün hallarda mövcud çətinlikləri aradan qaldırmaq imkanına malik olacaqlar. O cümlədən, İKT-dən istifadə əsasında kiçik, orta və iri sahibkarların bir-birinə dəstək vermək imkanları artacaqdır.

Qeyd edilən problemlərin vaxtında həll olunması respublikamızda kənd təsərrüfatında ciddi irəliləyişlərin baş vermə prosesinə şərait

yaradacaqdır. Bunları nəzərə alaraq, ölkəmizdə İKT-nin və elektron kommersiyanın aqrar sektorda biznesin inkişafına tətbiqi məsələlərinə dair elmi araşdırmaların, tədqiqat işlərinin aparılmasına, müvafiq elmi əsaslandırılmış metodiki təlimatların, tövsiyələrin işlənib hazırlanmasına ehtiyac olduğunu sübuta yetirir.

**Problemin öyrənilmə vəziyyəti.** Qeyd edək ki, aqrar sahədə İKT-nin tətbiqi məsələlərinin ətraflı araşdırılması özünün çətinliyi və informasiya bazasının məhdudluğu ilə xarakterizə olunur. Bunu nəzəri olaraq, ölkəmizdə bu tədqiqat sahəsi iqtisadçı alim və mütəxəssislərimizi ciddi şəkildə düşündürmüşdür. Respublikamızın tanınmış iqtisadçı alimlərindən Z.Ə.Səmədzadə, A.K.Ələsgərov, Ş.Ə.Səmədzadə, M.M.Sadıqov, İ.M.Abbasov, F.Ə.Məmmədov iqtisadiyyatda elmi-texniki potensialından istifadə olunması məsələlərini, İ.H.Alıyev, G.Ə.Gənciyev, B.X.Ataşov, Ə.Q.Əlirzayev, S.V.Salahov, A.T.Əhmədov, Ə.Ç.Verdiyev, Ə.X.Nuriyev, V.M.Niftullayev, İ.H.Əhmədov, İ.H.İbrahimov, V.T.Əmrahov, Q.Abbasov, V.H.Abbasov, Ş.E.Yaqubov, İ.M.Xeyirxəbərov, L.V.Abışlı və başqaları isə bilavasitə aqrar sahədə elmi-texniki potensialdan istifadə olunması problemlərinin ayrı-ayrı aspektlərini araşdırmışlar. Bu məsələlər Rusiya və digər MDB ölkə alimlərindən S.F.Davidyuk, V.N.Buqorskiy, L.P.Qavrilov, M.P.Çemodanov, Q.M.Dobrov, Z.S.Blyaxmin, V.B.Toçkal, S.A.Kuçel, A.İ.Priqojin, Q.A.Yaxtin, Q.E.Kuznetsov, Y.M.Kaniqin, M.V.Keldış, M.S.Mintoyzov, İKT-nin və elektron kommersiyanın kənd təsərrüfatına tətbiqinə dair araşdırmalar aparan S.F.Pokrovskaya, V.Y.Kamışenkov, İ.D. Kotlyarov, S.Q.Salnikov və digərləri tərəfindən müxtəlif aspektlərdə öyrənilmişdir. Elektron kommersiyanın sahibkarlıq fəaliyyətinin müxtəlif sahələrinə tətbiqinə dair araşdırmalar aparan xarici ölkə alimlərindən B.Berman, E.Dixtl, R.Braun, U.Xenson və digərlərini göstərmək olar.

Bununla belə, respublikanın elmi-tədqiqat müəssisələrində İKT-nin və elektron kommersiyanın aqrar sektorda biznesin inkişafına tətbiqi məsələləri məxsusi olaraq tədqiq olunmamışdır ki, bu da bir daha dissertasiya işinin əhəmiyyətini artırır.

**Tədqiqatın məqsədi və vəzifələri.** Dissertasiya işinin məqsədi müasir şəraitdə İKT-nin, o cümlədən elektron kommersiyanın imkanlarından səmərəli istifadə olunaraq kənd təsərrüfatında biznesin inkişaf etdirilməsi üzrə elmi cəhətdən əsaslandırılmış metodiki tövsiyələr işləyib hazırlamaq və praktik təkliflər irəli sürməkdir. Tədqiqatın məqsədinə uyğun olaraq dissertasiyada aşağıdakı vəzifələr qarşıya qoyulmuş və yerinə yetirilmişdir:

- İKT-nin və İnternet sisteminin tətbiqinin nəzəri-metodoloji və sosial-iqtisadi aspektlərini araşdırmaq;

- Kənd təsərrüfatında İKT-dən istifadə əsasında biznesin inkişaf xüsusiyyətlərini müəyyən etmək;

- Kənd təsərrüfatında təsərrüfat subyektlərinin səmərəli fəaliyyəti üçün İKT və elektron kommersiyanın rolunu müəyyənləşdirmək;

- Respublikada aqrar sektorda İKT-nin tətbiqinin müasir vəziyyətini araşdırmaq və bu sahədə mövcud probemləri aşkara çıxarmaq;

- İKT-nin kənd təsərrüfatı sahəsində biznes subyektlərinin optimal qərarların qəbul edilməsində və effektiv idarəetmənin təşkil olunmasında rolunu müəyyən etmək;

- Kənd təsərrüfatı müəssisələrinin etibarlı informasiya mənbələri ilə təminatı üçün elmi cəhətdən əsaslandırılmış metodik tövsiyələr işləyib hazırlamaq;

- Tədqiqat zamanı ölkənin ixrac potensialında kənd təsərrüfat məhsullarının xüsusi çəkisini təhlil etmək üçün İKT-nin üstünlüklərindən istifadə etmək;

- Aqrar sahədə biznesin təşkilində İKT-dən səmərəli istifadənin prioritet istiqamətlərini göstərmək.

**Tədqiqatın obyekti** kimi aqrar sektorda fəaliyyət göstərən təsərrüfat subyektləri və İKT məhsulları bazarının iştirakçıları götürülmüşdür.

**Tədqiqatın predmetini** aqrar sahədə İKT-dən istifadə əsasında biznes fəaliyyətinin səmərəli təşkili və idarə olunması prosesində dövlət və özəl müəssisələr arasında yaranan sosial-iqtisadi və təşkilati-iqtisadi münasibətlər təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasını** yerli və xarici iqtisadçı alimlərinin əsərləri, həmçinin Azərbaycan Respublikası Prezidentinin bu sahə ilə bağlı olan fərman və sərəncamları, Milli Məclis tərəfindən qəbul edilmiş qanunlar və digər hüquqi-normativaktlar təşkil edir. Dissertasiya işinin yazılmasında iqtisadi təhlil, müqayisə, müşahidə, iqtisadi – riyazi, statistik qruplaşdırma, dialektik, qrafik və s. metodlardan istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası**. Dissertasiya işinin yazılması prosesində bu problem ilə məşğul olan iqtsadçı aimlərin əsərlərindən, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Kənd Təsərrüfatı Nazirliyinin illik hesabatları və digər məlumatlarından, aqrar sahəyə xidmət edən elmi-tədqiqat institutlarının, həmçinin müəllif tərəfindən aparılmış müşahidə və sorğu materiallarından istifadə edilmişdir. İşin yerinə yetirilməsi prosesində elmi-texniki fəaliyyətlə əlaqədar beynəlxalq, həmçinin respublikadaxili normativlər ilkin baza kimi nəzərə alınmışdır.

**Tədqiqat işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:**

- Tədqiqat prosesində respublikada aqrar sektorda İKT-nin mövcud tətbiqi vəziyyəti araşdırılmış, real vəziyyət təhlil olunaraq, bir sıra təklif və tövsiyələr irəli sürülmüşdür;

- Kənd təsərrüfatı müəssisələrində İnternet Sisteminin elektron kommersiyanın imkanlarından istifadə edilərək məhsulların istehsalı və satışına dair optimal qərarların qəbul olunması elmi cəhətdən əsaslandırılmışdır;

- Tədqiqat prosesində ölkənin ixrac potensialında kənd təsərrüfatı məhsullarının xüsusi çəkisinin müəyyən olunmasında İKT-dən istifadə imkanları araşdırılmışdır;

- Beynəlxalq təcrübə əsasında ölkənin aqrar sektorunda biznesin səmərəli təşkili və idarə olunmasında elektron kommersiyanın tətbiqi imkanlarından istifadə mexanizmlərinin reallaşdırılması üzrə metodik tövsiyələr irəli sürülmüşdür;

- Aqrar bölmədə İKT-nin müasir imkanlarından istifadə olunması məqsədilə bu sahəyə investisiya cəlbediciliyinin stimullaşdırılması mexanizmləri göstərilmişdir;

- Kənd təsərrüfatı məhsullarının elektron ticarət sistemi vasitəsilə xarici bazarlara (əmtəə birjalarına) çıxarılmasına dair bir sıra metodik tövsiyələr irəli sürülmüşdür;

- Kənd təsərrüfatında İKT-dən istifadə etmək bacarığına malik olan işçi potensialının hazırlanmasının perspektiv imkanlarına dair bir sıra təkliflər verilmişdir;

- Aqrar sahədə biznesin təşkilində İKT-dən səmərəli istifadənin prioritet istiqamətləri göstərilmişdir;

- Aqrar sahədə təsərrüfat subyektlərində kənd təsərrüfatı məhsullarının satışı və biznesin səmərəli təşkili məqsədilə real vaxt rejimində işləyən internet mağazaların, elektron ticarət şəbəkələrinin yaradılması mexanizmi işlənib hazırlanmışdır.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Tədqiqat işi bu sahədə ilk araşdırmalardan olduğu üçün onun materiallarından ali təhsil müəssisələrində tədris vəsaiti kimi istifadə edilməsi nəzərdə tutulur. Eyni zamanda, dissertasiya işində aqrar elektron ticarət portallarının yaradılması mexanizmi təklif edilir ki, real vaxt rejimində işləyə biləcək belə portallar həm sahibkarlar, həm iş adamları tərəfindən, həmçinin Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə yaradılar və aqrar bazarın istifadəsinə verilə bilər.

**Tədqiqatın sınaqdan keçirilməsi və istifadə olunması.** 2011-2016-cı illərdə beynəlxalq və respublika səviyyəsində keçrilmiş konfrans və seminarlarda müzakirə edilmişdir. Dissertasiyanın əsas müddəaları və nəticələri Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi “Aqrolizinq” ASC tərəfindən istifadə üçün qəbul olunmuşdur (Arayış № ASC/2-773, 05 aprel, 2016,). Həmçinin tədqiqatın nəticələrinə dair yerli və xarici jurnallarda 8 məqalə və tezis dərc edilmişdir.

**İşin strukturu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olmaqla 144 səhifədə yazılmışdır. Burada 8 cədvəl, 1 qrafik, 1 diaqram və 4 sxem verilmişdir. İşin axırında 139 adda ədəbiyyat siyahısı göstərilmişdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin girişində mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsəd və vəzifələri, obyekti, nəzəri-metodoloji əsasları, informasiya bazası, tədqiqatın elmi yeniliyi və praktiki əhəmiyyəti şərh edilir.

**"Aqrar sahədə İKT-dən istifadə əsasında elektron biznes və kommersiyanın tətbiqinin nəzəri-metodoloji əsasları"** adlanan birinci fəsildə aqrar sahədə biznesin inkişaf mərhələləri və xüsusiyyətləri, İKT-dən istifadənin əsas istiqamətləri şərh olunur. Burada nəzəri-metodoloji baxımdan cəmiyyətin informasiyalaşması probleminə iki əsas istiqamətdə yanaşılır və fərqləndirilir. Bunlardan biri texnokratik yanaşmadır. Bu zaman texnologiyanın köməyi ilə istehsal və idarəetmə sahəsində cəmiyyətin informasiyalaşdırılması, insanların əmək fəaliyyətinin texnologiya ilə təchizatı yaxşılaşdırılır. Belə olduğu təqdirdə informasiya texnologiyaları əmək məhsuldarlığının artımının mühüm vasitəsi kimi qiymətləndirilir.

İkinci problem sosioloji yanaşmadır. Bu halda informasiyalaşdırmaya insanın özünə təsir edən insan fəaliyyətinin bütün sferalarının – onun biliklərinin, əxlaqının, iqtisadi və mənəvi maraqlarının inkişafını əhatə edən proses kimi baxılır.

İnternet texnologiyaları elektron biznesin, onun tərkibində əsas komponent olan elektron kommersiyanın sürətli inkişafına güclü təkan vermiş, insan fəaliyyətinin spesifik sahəsi olan İnternet iqtisadiyyatı, virtual iqtisadiyyat yaranmışdır. Sənaye cəhətdən inkişaf etmiş ölkələr iqtisadi və sosial inkişaf templərini sürətləndirmək məqsədilə İnternet iqtisadiyyatına külli miqdarda vəsait qoymuşlar.

Elektron kommersiya 20 ildən çox intensiv inkisaf tarixinə malikdir. Özünün yaranması ilə o, təyyarə biletlərinin satışının avtomatlaşdırılması, plastik kartların və müəssisələrin resurslarının avtomatlaşdırılmış idarəedilməsi sistemlərinin qurulması texnologiyalarının meydana gəlməsinə borcludur.

Ən yeni informasiya və telekommunikasiya texnologiyalarının tətbiqinə əsaslanan e-kommersiyanın əsas xüsusiyyəti alıcı ilə satıcı arasındakı bir çox əlaqələrin İnternet vasitəsilə həyata keçirilməsidir. İnternet istənilən məhsulun ticarət əməliyyatını həyata keçirə bilər. İnternet şirkətlərə öz məhsullarını yaymaq və satmaq üçün çox böyük imkanlar

yaradır. Lakin İnternet şəbəkəsi ilə yalnız informasiya xidmətləri çatdırıla bilər. İnternet vasitəsilə qəzet və jurnalların, ayrı-ayrı məqalələrin, EHM proqramlarının, arayış məlumatlarının və s. elektron versiyaları satılır.

Mütəxəssislər elektron ticarətin əsasən aşağıdakı üstünlüklərini qeyd edirlər:

1. Qlobal Auditoriya qazanmaq – Əmtəə və xidmətlərinizi onlayn qaydada təklif etdikdə, siz biznesinizi bir milyarddan artıq potensial müştəri bazasına "açmış" olursunuz. Əvvəl isə sizin müştəri bazanız mağazanızı və ya elanlarınızı görəcək adamların sayı ilə məhdudlaşırdı. İndi bütün dünya təklif etdiklərinizi ala bilər.

2. 24 saat ərzində çıxış imkanı – Adi ticarətin əsas zəif tərəflərindən biri odur ki, siz mağazanız yalnız açıq olduqda mal və xidmətlərinizi təklif edə bilərsiniz. Onlayn qaydada satdıqda isə mağazanız gündə 24 saat açıq olur. Müştərilər rahat şəkildə istənilən vaxt məhsul və ya xidmətinizi ala bilirlər.

3. Əhəmiyyətli dərəcədə az işçi xərcləri – Onlayn qaydada iş yalnız cüzi maliyyə öhdəliyi tələb edir. Hər ay icarə haqqı və ya işçilərin əmək haqlarının ödənilməsinə ehtiyac yoxdur və bu işi başlama xərcləri xeyli aşağıdır. Onlayn mağazanı bir çox hallarda yalnız bir və ya iki nəfərlə idarə etmək olar. Tələb olunan yeganə sabit xərclər aylıq hostinq haqqı və elektron mağazanın qurulmasının ilkin xərcindən ibarətdir. Bu xərclər fiziki mağazanın açılması və saxlanılması üçün tələb olunan xərclərdən xeyli aşağıdır.

Eyni zamanda birinci fəsildə İKT-nin (elektron kommersiyanın) tətbiqinin sosial-iqtisadi aspektləri və onun səmərəliliyinin qiymətləndirilməsi məsələlərinə xüsusi diqqət yetirilir.

Elektron kommersiya alətlərinin kənd təsərrüfatı məhsullarının satışı prosesinə tətbiqi imkanlarını araşdıran həm tədqiqatçılar, həm də bilavasitə bu işlə ptaktik məşğul olan iş adamları əsas diqqəti B2B (biznesdən-biznesə - elektron kommersiyanın elə bir kateqoriyasıdır ki, şirkət, təchizatçının və malın seçimindən, təchizatçıdan malın sifarişi prosesindən, hesab-fakturaların alınmasından başlayaraq, ödəmə və digər əməliyyatlardan ibarət fəaliyyətini elektron məlumat mübadiləsi əsasında həyata keçirir) seqmentinə yönəldirlər.

Hazırda Rusiya, Ukrayna, Qazaxıstan və digər MDB ölkələrində, həmçi
nin inkişaf etmiş xarici ölkələrdə məhz kənd təsərrüfatı məhsullarının alqı-satqısı ilə əlaqədar İnternetdə çoxlu sayda aktiv "ticarət meydançaları" fəaliyyət göstərir ki, bu da fermerlərə nəinki öz ölkələrində, həmçinin xaricdə də partnyorlar tapmağa və səmərəli işgüzar münasibətlər qurmağa imkan verir.

Kənd təsərrüfatında İT-dan istifadə bu biznes iştirakçılarına aşağıdakı üstünlükləri əldə etmək imkanı verir:

- satıcılar və alıcılar, dilerlər, partnyorlar və digər iqtisadi agentlər arasında informasiya mübadiləsi;

- reklam aksiyaları üçün resursların çatışmazlığı probleminin həlli;
- regional və beynəlxalq bazarlara çıxış;
- informasiyaların əldə edilməsi, sənədlərin mübadiləsi və danışıqların aparılması üçün rabitə xərclərinin azaldılması və ixtisarı;
- işgüzar münasibətlər üçün zəruri olan operativlik;
- uçot və hesabat işlərinin aparılmasının asanlaşdırılması və operativ nəzarətin təmin edilməsi və s.

Aqrar sahədə elektronlaşdırılmanın genişlənməsi informasiyaların ötürülmə sürətini və dəqiqliyini yüksəldir. Məhsulların qiymətləri, qoyulan vəsaitlər və istehlakçı meylləri haqqında ən son məlumatlardan xəbərdar olmaq fermerin qəbul etdiyi qərarların optimallığını əsaslı şəkildə yüksəldə və sövdələşmələrdəki mövqeyinə müsbət təsir edə bilər. Belə məlumatlar gələcək əkin və məhsullar haqqında və məhsulları satmaq üçün ən yaxşı zaman və yer haqqında qərar qəbul etmək üçün alətdir.

Göstərilənlərlə yanaşı, birinci fəsildə aqrar sektorda İKT əsasında biznesin inkişafına investisiya cəlbediciliyinin artırılmasına dair beynəlxalq təcrübədən istifadə olunması imkanları tədqiq edilir.

Aqrar bölməni iqtisadiyyatın başqa sahələrindən fərqləndirən investisiya qoyuluşlarının riskini artıran xüsusiyyətlərdən biri də təbii, ekoloji və ətraf mühitin mühafizəsi ilə bağlı amillərdən əmələ gələn çətinliklərdir.

Aqrar sahədə investisiya qoyuluşlarına, onun ödənilmə müddətinə təsir edən amillərdən biri də ekoloji tarazlığın pozulması, onun kənd təsərrüfatına, ətraf mühitə vurduğu ziyandır. Ətraf mühitin mühafızəsi məsələsi aqrar sahə üçün daha mühümdür. Çünki burada istehsal bilavasitə ətraf mühitlə bağlıdır. Elmi-texniki tərəqqinin sürətlənməsi təbiətlə kənd təsərrüfatı arasında qarşılıqlı əlaqəni dərinləşdirməklə yanaşı aqrar bölmədə istehsalın ətraf mühitə təsirini gücləndirir.

Dissertasiya işinin ikinci fəsli **"Azərbaycanda kənd təsərrüfatında biznesin təşkilində İKT-dən istifadənin müasir vəziyyətinin təhlili"** adlanır. Bu fəsildə kənd təsərrüfatında kiçik və orta biznesin inkişafının müasir vəziyyəti və inkişaf istiqamətləri geniş formada faktiki materiallar əsasında təhlil olunur. Azərbaycanda bazar münasibətlərinin formalaşması prosesində dövlətin iqtisadi siyasətinin başlıca istiqamətini milli sahibkarlıq strategiyası təşkil edir. Ölkədə həyata keçirilən radikal struktur dəyişiklikləri nəticəsində sahibkarlığın yeni fəaliyyət istiqamətləri müəyyən edilmiş və onun qarşısında duran mühüm vəzifələr irəli sürülmüşdür. Bu problem dövlətin sahibkarlıq siyasətinin ana xəttini təşkil edir. Respublikada dövlətin sahibkarlıq siyasətinin tələblərinə uyğun olaraq sahibkarlığın inkişaf imkanları və fəaliyyət dairəsi xeyli dərəcədə genişlənmişdir.

Ölkədə sahibkarlığın inkişafında müasir bazar sistemli ölkələrin çoxillik sahibkarlıq təcrübəsinin mühüm rolu olmuşdur. Respublikada artıq sahibkarlıq sosial-iqtisadi inkişaf konsepsiyasının və strategiyasının aparıcı struktur bölməsinə çevrilmişdir. Dövlətin makroiqtisadi siyasətində sahibkarlığın aparıcı rolu bir də onunla şərtlənir ki, son dövrdə Azərbaycan iqtisadiyyatında güclü sahibkarlar təbəqəsi formalaşmış və özəl sektorun əsas daşıyıcıları kimi çıxış edir.

Son dövrdə Azərbaycanda bazar strukturlarının fəaliyyətində xeyli dərəcədə dəyişiklik baş vermişdir. 2005-2014-cü illərdə bazar strukturunun fəaliyyətində (göstəricilərində) xeyli dərəcədə artım müşahidə olunmuşdur. Həmin göstəricilərin dinamik artımında ölkə iqtisadiyyatında sahibkarlıq fəaliyyətinin hərtərəfli inkişafının mühüm rolu olmuşdur. Gələcək dövrdə sahibkarlıq strategiyasına və onun hərtərəfli inkişafına dövlət qayğısının artması bazar strukturlarının fəaliyyətinin daha da genişlənməsinə öz müsbət təsirini göstərəcəkdir.

Ümumiyyətlə, bütün dövrlərdə dövlətin sahibkarlıq siyasəti həmişə iqtisadi inkişafın ana xəttini təşkil etmiş və dövlətlə sahibkarlar arasında birbaşa qarşılıqlı münasibət öz təsdiqini tapmışdır.

Son illərdə dövlətin sahibkarlıq strategiyasının həyata keçirilməsi yeni iş yerlərinin yaranmasına, əhalinin məşğulluq səviyyəsinin artmasına, işsizliyin azalmasına, mövcud sosial problemlərin həll olunmasına əlverişli şərait yaratmışdır. Son bir il ərzində özəl sektorun müxtəlif fəaliyyət sahələrinin canlanması nəticəsində 1 milyon 300 mindən çox yeni iş yeri açılmışdır ki, bunun da 540 mini daimi iş yeridir. Ölkədə milli sahibkarlığın intensiv inkişafı ilə bağlı olaraq əvvəlki illə müqayisədə makroiqtisadi göstəricilərin səviyyəsi xeyli dərəcədə artmışdır ki, bu da iqtisadi artım səviyyəsinə mühüm dərəcədə təsir göstərmişdir.

Son dövrdə respublika iqtisadiyyatına qoyulan xarici investisiyaların sahə strukturu dəyişməyə başlamış, xarici investorların və iş adamlarının respublika iqtisadiyyatına maraqlarının gündən-günə artması, onların digər fəaliyyət sahələrinə də investisiya qoyulmasına stimul yaratmışdır. Bunun nəticəsi olaraq, 2014-cü ildə respublikada 1335,2-dən çox xarici və birgə müəssisələr (firmalar) fəaliyyət göstərir. Respublikada fəaliyyət göstərən xarici sərmayəli müəssisələr əsasən ticarət, xidmət, ictimai iaşə, tikinti və çox az miqdarda istehsal və ya emal sahələrilə (neft sektorundan başqa) məşğul olurlar. Bu baxımdan hazırda dövlətin həyata keçirdiyi sosial-iqtisadi inkişaf strategiyasında qeyri-neft sektorunun inkişafına daha çox xarici investisiya qoyuluşu siyasətinə üstünlük verilir. Xüsusilə, bütün maliyyə mənbələri hesabına istehsal yönümlü fəaliyyət sahələrinə investisiya qoyuluşu siyasətinin işlənib hazırlanmasına ciddi ehtiyac duyulur.

2005-2014-cü illərdə Azərbaycan iqtisadiyyatına yönəldilən xarici və daxili investisiyaların həcmini aşağıdakı cədvəldən görmək olar.

**Cədvəl 1.**

**2005-2014-cü illərdə Azərbaycan iqtisadiyyatına yönəldilən xarici və daxili investisiyaların həcmi**

| | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|
| Investisiya qoyuluşları: bütün sahələr üzrə (xarici investisiyalar nəzərə alınmaqla) mln manat | 6733,4 | 14118,9 | 17048,8 | 20251,1 | 21448,2 | 21890,6 |
| Mln dollar | 7118,5 | 17591,5 | 21588,9 | 25777,8 | 27340,0 | 27907,5 |
| Xarici investisiyalar mln manat | 4628,5 | 6619,7 | 6849,8 | 8102,7 | 8269,3 | 9175,6 |
| Mln dollar | 4893,2 | 8247,8 | 8673,9 | 10314,0 | 10540,9 | 11697,7 |
| Daxili investisiyalar mln manat | 2104,9 | 7499,2 | 10199,0 | 12148,4 | 13178,9 | 12715,0 |
| Mln dollar | 2225,3 | 9343,7 | 12915,0 | 15463,8 | 16799,1 | 16209,8 |

Cədvəl 1-dən göründüyü kimi, 2005-2014-cü illərdə ölkə iqtisadiyyatına qoyulmuş investisiyaların həcmində dinamik olaraq artım baş vermişdir. Belə ki, 2005-ci ildə bütün sahələr üzrə investisiya qoyuluşlarının məbləği 6733,4 mln manat olmuşdursa, 2014-cü ildə onun məbləği təxminən 3 dəfə artaraq 21890,6 mln manata çatmışdır. Belə artım səviyyəsi analoji olaraq müvafiq illər üzrə xarici və daxili investisiyalarda da özünü göstərmişdir. Ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrinə yönəldilən investisiya qoyuluşlarının həcmi bir-birindən fərqlənir. İnvestisiya qoyuluşları daha çox az rentabelli sahələrdən daha çox rentabelli sahələrə yönəldilir ki, bu da sahibkarların iqtisadi maraqlarına birbaşa təsir göstərir. Sahibkarların fəaliyyətində belə bir siyasət iqtisadi regionlar üzrə sahibkarlığın tarazlı inkişafına əlverişli şərait yaradır.

Bir cəhəti də qeyd etmək lazımdır ki, indiyə kimi respublikamızın müxtəlif regionlarında fəaliyyət göstərən fərdi sahibkarlıq əsasən pərakəndə, dağınıq və qeyri-tarazlı səviyyədə inkişaf etmişdir.

Dövlət Proqramında göstərilən təhlilin nəticəsi bir daha sübut edir ki, kiçik və orta sahibkarlığın regionların tqtisadiyyatında rolu getdikcə artmağa başlayır. Bu prosesin geniş mənzərəsini aşağıdakı məlumatlardan görmək olar.

**Cədvəl 2.**

**Azərbaycanda 2010-2014-cü illərdə regionlar üzrə kiçik sahibkarlıq subyektlərinin sayı**

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|
| Ölkə üzrə cəmi | 137020 | 135353 | 141422 | 165277 | 186898 |
| Bakı şəhəri | 50012 | 47621 | 50029 | 58265 | 70253 |
| Abşeron iqtisadi rayonu | 11567 | 10945 | 10765 | 12546 | 13824 |
| Gəncə - Qazax iqtisadi rayonu | 16796 | 15983 | 16869 | 20586 | 22114 |
| Şəki – Zaqatala iqtisadi rayonu | 8253 | 8491 | 9096 | 10717 | 11485 |
| Lənkəran iqtisadi rayonu | 7916 | 8690 | 8996 | 10193 | 11935 |
| Quba – Xaçmaz iqtisadi royunu | 6660 | 6259 | 6557 | 8081 | 9107 |
| Aran iqtisadi rayonu | 25188 | 25434 | 36135 | 30256 | 32670 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 1686 | 2297 | 2756 | 3442 | 3492 |
| Dağlıq Şirvan iqtisadi royunu | 3628 | 3705 | 4029 | 4612 | 5115 |
| Kəlbəcər – Laçın iqtisadi rayonu | 61 | 272 | 386 | 433 | 514 |
| Naxçıvan iqtisadi rayonu | 5253 | 5656 | 5804 | 6146 | 6389 |

Cədvəl 2.-dən göründüyü kimi, ölkə üzrə kiçik sahibkarlıq subyektlərinin sayı müntəzəm olaraq artmaqda davam edir.

Bakı şəhərində 2014-cü ildə onların sayı artaraq, 70253-ə çatmışdır. Respublikanın bütün iqtisadi rayonlarındakı bir-birindən fərqli inkişaf xüsusiyyətlərini nəzərə alaraq qeyd etmək olar ki, bir sıra iqtisadi rayonlarda kiçik sahibkarlıq subyektlərinin sayı son illərdə artmağa doğru meyl etmişdir. Həmin rayonlara misal olaraq, Aran, Gəncə-Qazax, Lənkəran, Naxçıvan və digər iqtisadi rayonları göstərmək olar. Qeyd etmək lazımdır ki, kiçik sahibkarlığın inkişafı iqtisadi fəaliyyətin bütün sahələrini əhatə edir. 2014-cü ildə regionların və iqtisadiyyatın sahələri üzrə kiçik müəssisələrin bölgüsü aşağıdakı kimi olmuşdur.

**Cədvəl 3.**

**2014-cü ildə regionlar və iqtisadi fəaliyyət növləri üzrə kiçik müəssisələrin bölgüsü**

| | Müəssisələrin sayı | Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq | Sənaye | Tikinti | Ticarət: nəqliyyat vasitələrinin təmiri | Nəqliyyat və anbar təsərrüfatı | Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | Digər fəaliyyət növləri |
|---|---|---|---|---|---|---|---|---|
| Ölkə üzrə | 14981 | 1786 | 1721 | 1328 | 6352 | 301 | 274 | 3219 |
| Bakı şəhəri | 8299 | 72 | 869 | 848 | 3717 | 187 | 226 | 2380 |
| Abşeron iqt. rayonu | 758 | 33 | 163 | 75 | 307 | 2 | 16 | 162 |
| Gəncə - Qazax iqtisadi rayonu | 1206 | 243 | 206 | 64 | 502 | 37 | 8 | 146 |
| Şəki – Zaqatala iqtisadi rayonu | 674 | 125 | 80 | 54 | 321 | 6 | 1 | 87 |
| Lənkəran iqtisadi rayonu | 848 | 348 | 51 | 39 | 319 | 16 | 3 | 72 |
| Quba – Xaçmaz iqtisadi rayonu | 369 | 98 | 46 | 19 | 138 | 11 | 4 | 53 |
| Aran iqtisadi rayonu | 1985 | 653 | 195 | 161 | 708 | 25 | 15 | 228 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 355 | 157 | 16 | 27 | 119 | 5 | - | 31 |
| Kəlvəcər – Laçın iqt.rayonu | 49 | 10 | 1 | 8 | 26 | 1 | - | 3 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 191 | 22 | 23 | 19 | 102 | 5 | 1 | 19 |
| Naxçıvan iqtisadi rayonu | 247 | 25 | 71 | 14 | 93 | 6 | - | 38 |

Cədvəl 3.-dən göründüyü kimi, 2014-cü ildə ölkə üzrə kiçik müəssisələrin sayı 14981, Bakı şəhərində isə 8299 olmuşdur. İqtisadi rayonlara nəzər saldıqda Abşeron, Gəncə-Qazax, Lənkəran, Aran iqtisadi rayonlarında digərlərinə nisbətən kiçik sahibkarlıqla daha çox məşğul olan sahələrə kənd təsərrüfatını, sənayeni, tikintini və digərlərini aid etmək olar. Bunları nəzərə alaraq, gələcəkdə bütün iqtisadi rayonlar üzrə sahibkarlığın tarazlı inkişafına xüsusi diqqət yetirilməli və həvəsləndirici vasitələrdən daha çox istifadə olunmalıdır. Əgər bütün

iqtisadi rayonlarda istehsal sahibkarlığının inkişafına investisiya qoyuluşlarının həcmi daha çox artırılarsa, onda yerli təbii, əmək və elmi-texniki potensialından səmərəli istifadə olunmuş olar.

Bu fəsildə aqrar sahədə İKT-dən istifadə əsasında ETT-nin nailiyyətlərinin tətbiqinin müasir vəziyyətinin təhlili məsələlərinə geniş yer verilir. Hazırda Azərbaycanda yeni əlverişli iqtisadi mühit formalaşmaqdadır və iqtisadi inkişaf daha çox innovativ xarakter almağa başlamışdır. İqtisadiyyatda özəl bölmənin çəkisi artmaqda davam edir və sahibkarlığa dövlət dəstəyi göstərilir. Belə şəraitdə, bütövlükdə, iqtisadiyyatın, eləcə də sahibkarlığın, özəl bölmənin inkişafına innovativ element kimi İKT-nin tətbiqi və bunun üçün müvafiq infrastrukturun formalaşması iqtisadi səmərəliliyin artmasına əhəmiyyətli müsbət təsir göstərmişdir.

Azərbaycanda İKT, informasiya və poçt sektorunun gəlirlərinin orta illik artım tempi 2003-2014-cü illərdə 20-25% olmuş, təqribən 6 dəfədən çox artaraq 20 mlrd. ABŞ dollarını ötmüşdür. 2003-2014-cü illərdə bu sektora təqribən 2,5 mlrd. ABŞ dolları həcmində investisiya qoyulmuşdur ki, bunun 28%-i dövlət, 72%-i isə yerli biznes strukturları və xarici investorlar tərəfindən yatırılmışdır. Beynəlxalq internet kanallarının ümumi tutumu dəfələrlə artırılaraq 200 Gbit/s-yə çatmışdır ki, Azərbaycan artıq trafikin ötürülməsi üzrə tranzit funksiyasını yerinə yetirməkdədir. Avropa ölkələrində vətəndaş cəmiyyətinə və biznes sektoruna göstərilən 20 əsas elektron xidmət növünün əksəriyyəti Azərbaycanda da tətbiq edilməkdədir.

Müasir dövrdə kənd təsərrüfatında İKT-nin üstünlüklərindən istifadə etmək üçün ixtisaslaşmış kadr potensialına böyük ehtiyac duyulur. Buna görə də, son dövrdə informasiya cəmiyyətinin formalaşmasında həm təhsil sistemində, həm də tədqiqat prosesində belə kadrların hazırlanmasına böyük ehtiyac duyulur. O cümlədən, tədqiqat prosesində rayonlarda, qəsəbələrdə və kəndlərdə yaşayan əhalinin informasiya cəmiyyətinin formalaşması istiqamətində maarifləndirilməsinə dair bir sıra təklif və tövsiyələr irəli sürülmüşdür. Onu da qeyd etmək lazımdır ki, Azərbaycanın bir sıra ali təhsil müəssisələrində aqrar bölmənin idarə olunmasına və İKT-dən istifadəyə dair ixtisaslaşmış kadrların hazırlanmasına dövlət tərəfindən daha çox dəstək verilir.

2014-cü il aprelin 2-də Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya” təsdiq edilmişdir. Həmin Strategiyada elektron ticarətin “biznes sektorunda tətbiqinin genişləndirilməsi və iqtisadiyyatda internet sisteminin hərtərəfli inkişaf etdirilməsi” ciddi vəzifə kimi qarşıya qoyulmuşdur.

Eyni zamanda kənd yaşayış məntəqələrində İKT-dən istifadənin genişləndirilməsi və kənd təsərrüfatında tətbiqi ilə əlaqədar konkret tapşırıqlar müəyyənləşdirilmişdir:

• əhalinin müxtəlif qrupları, şəhər və kənd yaşayış məntəqələri, iqtisadiyyatın müxtəlif sahələri arasında İKT-dən istifadədə mövcud fərqlilik aradan qaldırılmalıdır;

• yerləşdiyi ərazidən asılı olmayaraq, bütün əhalini və təşkilatları birləşdirən yüksəksürətli dayanıqlı, təhlükəsiz genişzolaqlı şəbəkənin qurulması və onun əsasında, kənd yaşayış məntəqələri də daxil olmaqla, ölkə ərazisində ucuz və keyfiyyətli xidmətlərin göstərilməsi;

• sosial-iqtisadi inkişafın prioritet sahələrində, o cümlədən kənd təsərrüfatı, sənaye, turizm və digər sahələrdə İKT və elektron hökumətə keçid sisteminin tətbiqinin genişləndirilməsi;

• cəmiyyətin bütün üzvləri, xüsusilə də ucqar kənd yaşayış məntəqələrində yaşayan və ya xüsusi tələbləri olan insanların kompüterdən, internet xidmətlərindən, "Elektron hökumət" portalından istifadə bacarıqlarının formalaşdırılması və inkişaf etdirilməsi;

Kosmik sənaye inkişaf etdikcə, yeni telekommunikasiya və aşağı orbitli peyklərin orbitə çıxarılması ilə etibarlı peyk rabitəsi, milli radio və televiziya proqramlarının peykdən paket yayımı təmin ediləcək, ətraf mühitin mühafizəsi, kənd təsərrüfatı, topoqrafiya və kartoqrafiya, eləcə də milli təhlükəsizlik sahəsində fəaliyyətin səmərəliliyi artırılacaqdır.

Tədqiqat işinin üçüncü fəsli **"Kənd təsərrüfatında İKT-nin və elektron kommersiyanın tətbiqi sayəsində biznesin təşkilinin təkmilləşdirilməsi istiqamətləri"** adlanır. Bu fəsildə aqrar sektorda biznesin səmərəli təşkilinin bir sıra prioritet istiqamətləri müəyyən edilmişdir.

İKT hal-hazırda maliyyə xidmətlərinə daha çox potensial müxtəliflik gətirməyə və fermerlərə xidmət göstərmək imkanına malikdir. İKT həmçinin dövlət qurumlarına kəndli-fermerlərə göstərilən xidmətləri izləmək və qiymətləndirmək, effektiv maliyyə siyasəti qaydalarını yaratmaq və həyata keçirmək imkanı verir.

Kənd yerlərində bir sıra dövlət qurumları, kommersiya bankları, mikromaliyyələşdirmə institutları, treyderlər, telekommunikasiya şirkətləri, icma əsaslı təşkilatlar və s. kimi agentliklər fermer təsərrüfatlarını maliyyə xidmətləri ilə təmin edir. İKT sayəsində bunların sırasına kredit, qənaət, sığorta, transfert və ödənişlər kimi yeniliklər əlavə oluna bilər.

İKT-nin kənd təsərrüfatı üçün maliyyə xidmətlərindən istifadəsinin əsas şərtləri, güclü milli maliyyə sistemi, müəssisələr və şəxslər arasında elektron maliyyə əməliyyatlarına imkan yaradan infrastrukturdur. İki növ infrastruktur

və əlaqəli servislər elektronik əməliyyatları asanlaşdırır və həmçinin maliyyə xidmətlərinin kənd yerlərində yayılmasında mühüm rol oynayır.

Birincisi, yüksək sürətli internet və mobil telefonlara əl çatan və sərfəli qiymətləri özündə təşkil edən İKT infrasturukturudur. Bu infrastruktur elektron maliyyə əməliyyatlarının əsasını təşkil edir. İkincisi, milli ödəniş sistemləri, kredit büroları, ATM-lər və ya mikromaliyyə təşkilatları üçün mərkəzi platformalar maliyyə infrastrukturunu təşkil edir. Maliyyə infrastrukturu, maliyyə xidməti və texnologiya maliyyə sisteminin bütövlüyü və sabitliyi üçün vacib olan təminatçılarına bir biri ilə əlaqə qurmağa və real vaxtda əməliyyatlar aparmağa imkanlar yaradır. Məsələn, maliyyə infrastrukturu bir bankın müştərilərinə digər bankın ATM-lərindən istifadə etməyə və ya başqa bankın müştəriləri ilə əməliyyatlar (hesabların yazılması, pul köçürməsi kimi) aparmağa imkanlar yaradır. Bu, həmçinin yeni müştərinin kredit ödəmə qabiliyyəti kimi informasiyanı maliyyə müəssisələrinə ötürür.

Müasir dünyada informasiya texnologiyasının elektron ticarət və ya digər bir sözlə e-marketinq şəkliylə kənd təsərrüfatı məhsullarının ticarətindəki mövqe və əhəmiyyəti sürətlə artmış, internet və uzaqdan alver dövrü ciddi şəkildə özünü göstərmişdir. Elektron ticarətin həcmində meydana gələn bu artım ona ölkələrin iqtisadi, ictimai və inzibati strukturlarında dəyişiklik edə biləcək bir sıra əhəmiyyətli təsir imkanı yaratmışdır. İnformasiya texnologiyasının kənd təsərrüfatı məhsullarının ticarətindəki mövqe və əhəmiyyəti danılmaz olduğundan, Azərbaycanın dünya bazarında yerini təmin etmək məqsədilə e-kənd təsərrüfatı marketinq sisteminin üstünlüklərindən daha geniş istifadə olunmalıdır.

Azərbaycanda mobil telefonların geniş yayıldığını nəzərə alaraq, maliyyə xidməti təminatçıları İKT, İnternet və elektron kommersiya vasitələrindən istifadə edərək, kənd ərazilərində yerləşən müştərilərlə əlaqə yaradaraq, onları, maliyyə məhsulları və xidmətləri ilə, kredit, depozit, sığorta və ödənişlər daxil olmaqla təmin edə bilərlər. Maliyyə xidməti təminatçıları mobil telefon vasitəsi ilə təklif olunan maliyyə məhsullarını kənd təsərrüfatı ehtiyaclarına uyğunlaşdıra bilərlər. Hazırda ölkəmizdə fəaliyyət göstərən kommersiya bankları mobil operatorlarla əməkdaşlıq edərək bank hesabları olmayan, lakin mobil telefon vasitəsi ilə biznes və şəxsi məqsədlər üçün pul almaq və göndərmək istəyən kənd yerlərindəki müştərilər üçün bu xidməti təşkil edə bilərlər.

Bunlarla yanaşı, bu fəsildə kənd təsərrüfatı sektorunda məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi və ixracının stimullaşdırılmasının perspektiv imkanları müəyyən edilir. Bazar münasibətləri şəraitində aqrar sahənin dayanıqlı inkişafının təmin edilməsi, ölkənin ərzaq təhlükəsizliyi

üçün etibarlı əsasların yaradılması, habelə yerli istehsalçıların dünya bazarlarında getdikcə artan rəqabətlə ayaqlaşa bilmələri üçün, aqrar iqtisadiyyatda sağlam rəqabət qabiliyyətinin təşəkkülü və inkişafına hər cür şərait yaradılması, həyata keçirilən tədbirlərin modernləşmə istiqamətində aparılmasına təkan verilməsi zərurət kəsb edir. Bununla yanaşı, aqrar sahibkarlıq mühitinin daim yaxşılaşdırılması, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, yerli və xarici investisiyaların, müasir texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsi və bu yolla yüksək keyfiyyətli, rəqabətqabiliyyətli məhsulların istehsal edilməsi - bu sahənin dayanıqlı inkişaf strategiyasının əsas istiqamətlərindəndir .

Ölkəmizdə qeyri-neft sektoru strategiyası ilk növbədə iqtisadiyyatın şaxələndirilməsini tələb edir. Bu problemin uğurla reallaşmasında kənd təsərrüfat istehsalının özünəməxsus rolu vardır. Ölkə Prezidenti İ.H.Əliyev cənabları dəfələrlə öz çıxışlarında kənd təsərrüfatının inkişafına dövlət dəstəyini və ixrac olunan məhsulların xüsusi çəkisinin artırılmasını qeyd etmişdir. Artıq "Azəbayan brendi" adı altında bir sıra kənd təsərrüfat ıməhsullarının xarici bazarlara ixrac olunması, onun keyfiyyətinin və rəqabətqabiliyyətinin yüksəldilməsi strateji məsələ kimi irəli sürülür. Həmin məhsullara pambıq, taxıl, fındıq, şəkər çuğunduru, meyvə-tərəvəz və digərlərini aid etmək olar. həmin məhsullara ölkəyə xarici valyuta gətirir. Bu prosesdə elektron ticarət sisteminin böyük rolu vardır.

Müasir dövrdə, kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsi, ilk növbədə texnoloji geriliyin aradan qaldırılması və düzgün kooperasiyaya əsaslanan təsərrüfatçılığın inkişafını tələb edir. Bu və digər məsələlərin səmərəli həlli isə aqrar sahədə modernləşdirmə tədbirlərinin aparılması ilə uzlaşmalıdır. Müşahidələr göstərir ki, bu tədbirlər son illərdə kənd təsərrüfatının inkişafı istiqamətində qəbul edilən mühüm dövlət sənədlərində də əks olunmaqdadır.

Aqrar sahədə təsərrüfat subyektlərinin və onlarda istehsal edilən aqrar-sənaye məhsullarının rəqabətə davamlılığının yüksəldilməsi - həmin məhsulların xarici bazarda əhəmiyyətli rol oynamasında mühüm amil olmaqla yanaşı, həm də dövlət orqanlarının aqrar iqtisadiyyata müdaxilə prosesinin tərkib hissəsi kimi səciyyələnir. Aqrar sahənin dövlət tənzimlənməsinin aktivləşdirilməsi isə, bütövlükdə ölkənin milli ərzaq məhsullarının xarici bazarlara çıxış imkanlarının gücləndirilməsində əhəmiyyətli rol oynayır.

Milli aqrar-ərzaq sistemlərinin ixrac yönümlü məhsullar istehsal edən sektorlarının formalaşdırılması və onun möhkəmləndirilməsi sahəsində həyata keçirilən tədbirlər müvəqqəti xarakter daşımamalıdır. Bu sferada tətbiq edilən texnologiyaların fasiləsiz olaraq təkmilləşdirilməsi, istehsalın müasir

tələblərə uyğun təşkilinin təmin edilməsi tələb olunur. Çünki məhz belə şərtlər daxilində qloballaşan kənd təsərrüfatı və ərzaq məhsulları bazarlarında daim kəskinləşməkdə olan rəqabətə davam gətirmək mümkündür.

Aqrar ixracın genişləndirilməsi əsasında iqtisadi inkişaf imkanlarının reallaşdırılması ekoloji təhlükəsizliyin təmin edilməsi problemi ilə çulğalaşır. İxracın artırılması ilə əlaqədar torpaq və su resurslarının intensiv istifadəsi bir çox hallarda ətraf mühitin çirkləndirilməsi ilə nəticələnə bilər. Belə bir vəziyyət öz növbəsində ekoloji təhlükəsizliyin təmin edilməsinə yönəldilmiş səmərəli inzibati və iqtisadi tədbirlər kompleksinin həyata keçirilməsi ilə yanaşı, iqtisadiyyatın aqrar sənaye sektorunda təbiət qoruyucu texnologiyaların tətbiqinin zəruriliyini də irəli sürür.

Bu fəsildə kənd təsərrüfatında İKT-dən istifadə ölkənin ərzaq təhlükəsizliyinin və davamlı inkişafın əsas istiqamət kimi təhlil edilir. Ərzaq təhlükəsizliyi dedikdə istehlakçı üçün ərzağın əlyetərliyi – istehlak bazarında ərzağın fiziki mövcudluğu və istehlakçının öz tələbatını ödəməsi üçün həmin ərzağı almaq, əldə etmək imkanı başa düşülür. Yəni, ərzaq təhlükəsizliyi ərzağın istehlak bazarındakı miqdarı və istehlakçının alıcılıq qabiliyyətinin vəhdəti ilə səciyyələnir.

Ərzaq keyfiyyəti ərzağın istehlakçı üçün dəyərliliyi ilə xarakterizə olunur. Ərzaq keyfiyyəti ərzaq xammalının növü, istehsal texnologiyası, dad, rəng, struktur quruluşu və s. kimi müsbət, habelə xarab olma, torpaqla çirklənmə, rəngin, iyin, dadın dəyişməsi və s. kimi mənfi atributları özündə əks etdirir. Qida təhlükəsizliyi dedikdə hər hansı bir qida məhsulunun insan sağlamlığı üçün zərərli olan bioloji, kimyəvi və fiziki təhlükəli faktorlardan azad olması nəzərdə tutulur. Qida təhlükəsizliyi hər hansı bir qidanın insan, heyvan və ətraf mühüt sağlamlığı üçün təhlükə mənbəyi olmaq ehtimalından azad olmasıdır. Qida təhlükəsizliyi – sağlamlıq üçün fəsadlar yarada biləcək təhlükəli faktorların qidanın tərkibində qalmaq, sonradan yaranmaq və ya sonradan qidanın tərkibinə daxil olmaq ehtimalının istisnası deməkdir.

Qida məhsulunun təhlükəlilik səviyyəsi onun tərkibində qalan təhlükəli faktorlarla ölçülür. Yuxarıda qeyd olunduğu kimi, təhlükəli faktor üç qrupa – bioloji, kimyəvi və fiziki qruplara bölünür. Bioloji təhlükəli faktorlar qrupuna yoluxucu bakteriyalar, toksin ifraz edən orqanizmlər, parazitlər, viruslar və s. mikroorqanizmlər; kimyəvi təhlükəli faktorlar qrupuna təbii şəkildə yaranan toksinlər, qida əlavələri, pestisid qalıqları, baytarlıq preparatlarının qalıqları, ətraf mühit çirkləndiriciləri, kimyəvi çirkləndiricilər, allergenlər və s; fiziki təhlükəli faktorlar qrupuna metal qırıntıları, şüşə qırıntıları, işçilərə məxsus və istehsal prosesləri zamanı

ərzaq məhsullarına düşmək ehtimalı olan zinət əşyaları, daş qırıntıları, sümük qırıntıları və s. daxildir.

Azərbaycanda ərzaq təhlükəsizliyini gücləndirmək məqsədilə qida sənayesində kiçik və orta sahibkarlıq vahidlərinin modernləşdirilməsi prosesi sürətləndirilməlidir. Kənd təsərrüfatı istehsalçıları seçim imkanı olmayanda istehsal etdikləri məhsulu geniş təkrar istehsalı təmin etməyən qiymətə satmağa razı olurlar ki, nəticədə ərzaq təklifi azalır və proses ərzaq təhlükəsizliyinə mənfi təsir göstərir. Buna görə də Azərbaycan dövləti içki və tütün də daxil olmaqla, qida sənayesində kiçik və orta sahibkarlığın modernləşmə cəhdlərini dəstəkləməklə ərzaq təhlükəsizliyinə töhfə verməkdə davam edir.

Azərbaycanda ərzaq və qida təhlükəsizliyinin təmin olunmasında aşağıda göstərilən bir sıra hədəflərə diqqət yetirilməlidir:

- ərzaq məhsullarının istehsalında keyfiyyət və standartlaşma prinsiplərinə əməl olunmalıdır;
- ölkədə dövlət və özəl sektorlarda istehsal olunan bütün məhsullar (ərzaq və qeyri-ərzaq məhsulları) Azərbaycan Respublikası Standartlaşdırma və Metrologiya Komitəsinin daim nəzarətində olmalı və sertifikatlaşdırma aparılmalıdır;
- istehsal olunan və istehlakçılara çatdırılan məhsulların hər birinin keyfiyyəti laboratoriya vasitəsilə yoxlanılaraq bazara çıxarılmalıdır;
- ərzaq təhlükəsizliyinin təmin edilməsində müasir İKT-nin üstünlüklərindən istifadə olunmalıdır.

İKT ərzaq təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayır. Belə ki, İKT fermerləri və digər kənd təsərrüfatı istehsalçılarını hava proqnozları və məhsulların qiymətləri, həmçinin digər faydalı informasiya ilə təmin edir, eləcə də onların yeni kənd təsərrüfatı texnologiyaları, xəstəliklər, yeniliklər haqqında maarifləndirilməsində fəal iştirak edir. Dünya təcrübəsində belə xidmətlərin auditoriyası kifayət qədər genişdir. İKT tətbiq edilməklə təklif olunan xidmətlər nisbətən ucuz və operativ olmaqla kənd təsərrüfatı məhsuldarlığını artırmaq, lazımi məsləhətlər almaq prizmasında mühüm əhəmiyyətə malikdir və bilavasitə ərzaq təhlükəsizliyinin təmin olunmasına xidmət edir.

Dissertasiya işində tədqiqat prosesində aşağıdakı nəticələr əldə olunmuşdur:

Müasir şəraitdə cəmiyyətin mütərəqqi inkişaf sahələrindən biri cəmiyyət həyatının bütün sahələrinin kompüterləşdirilməsi və informasiyalaşdırılmasıdır. İKT-nin iqtisadiyyatın digər sahələrinə müsbət təsirini nəzərə alaraq kənd təsərrüfatında da onun üstünlüklərindən istifadə olunması tədqiqatın ana xəttini təşkil edir. Belə ki, kənd təsərrüfatı ölkə iqtisadiyyatının strateji sahələrindən biridir və qeyri-neft sektorunun inkişafında onun müstəsna rolu vardır. O cümlədən,

elektron ticarət vasitəsilə Azərbaycan məhsullarının xarici bazarlara çıxarılmasında kənd təsərrüfat məhsullarının rolu olduqca böyükdür.

Müasir kənd təsərrüfatı istehsalının səmərəliliyi və bu sahədə biznes fəaliyyətinin inkişafı innovasiya texnologiyalarının tətbiqi səviyyəsindən xeyli dərəcədə asılıdır. Bu mənada, kənd təsərrüfatında aqrar münasibətlərin yeniləşməsi və onun reallaşmasında elektron kommersiya, qlobal İnternet şəbəkəsi və digər İT-dan istifadənin mənimsənilməsinin əsaslandırılması və müvafiq tövsiyələrin hazırlanılması ciddi nəzəri və praktik əhəmiyyət kəsb edir. Qlobal İnternet şəbəkəsinin yaratdığı imkanlar sayəsində fermerlər və aqrar iqtisadiyatın digər iştirakçıları yerləşdikləri məkandan və məsafədən asılı olmayaraq həm lazımi resursları əldə edə, həm də məhsul və xidmətlərini təklif edə bilərlər.

Hazırda ölkəmizdə kənd təsərrüfatı sahəsində biznesin təşkilində İKT-nin imkanlarının və elektron kommersiyanın tətbiqində beynəlxalq təcrübədən istifadə edilir və indiyə kimi zəif inkişaf etmiş bu sahənin irəliləməsində mütərəqqi texnologiyalardan istifadə olunur.

İndiyə kimi kənd təsərrüfatı istehsalı daha çox əmək tutumlu sahə olmuş və məcmu xərclərdə əmək məsrəflərinin xüsusi çəkisi yüksək olmuşdur. Bu baxımdan kənd təsərrüfatı istehsalına yeni texnologiyaların tətbiqi həmin sahənin əmək tutumlu sahədən kapital tutumlu sahəyə çevrilməsinə birbaşa təsir göstərəcəkdir. Bunun nəticəsi olaraq, kənd təsərrüfatında istehsal olunan məhsulun ümumi həcmi daim artacaqdır və idarəetmə sistemində mühüm irəliləyişlər baş verəcəkdir.

Hal-hazırda ölkəmizdə İKT-nin əhatə dairəsi hökümət təşkilatlarını, qeyri-hökümət və özəl qurumları, iqtisadi-sosial, elm-mədəniyyət, ictimai-siyasi, təhsil və s. sahələri əhatə edir. Kənd təsərrüfatının informasiyalarla təchiz edilməsində Kənd Təsərrüfatı Nazirliyi birbaşa iştirak edir və onun istiqamətlərinin müəyyən olunmasında öz tövsiyələrini irəli sürür. Lakin bu sahədə Kənd Təsərrüfatı Nazirliyinin fəaliyyətinin və səylərinin gücləndirilməsi tövsiyə olunur.

İKT-nin inkişafı qeyri-neft sektorunun inkişafına təkan verir. Ona görə də Azərbaycanda kənd təsərrüfatı sahəsinə alternativ İKT sektorunun inkişaf etdirilməsi əhəmiyyətli hesab olunmaqla yanaşı, bu sahədə xarici təcrübələrdən faydalanmaq böyük əhəmiyyət daşıyır.

Nəticə olaraq göstərə bilərik ki, ölkəmizdə aqrar sektora İKT-nin və elektron kommersiyanın tətbiqi nəticəsində aşağıdakı üstünlükləri əldə etmək mümkün olacaqdır:

- fermerlər və alıcılar, dilerlər, partnyorlar və digər iqtisadi agentlər arasında informasiya mübadiləsi;

- reklam aksiyaları üçün resursların çatışmazlığı probleminin həlli;
- regional və beynəlxalq bazarlara çıxış;
- informasiyaların əldə edilməsi, sənədlərin mübadiləsi və danışıqların aparılması üçün rabitə xərclərinin azaldılması və ixtisarı;
- işgüzar münasibətlər üçün zəruri olan operativlik;
- uçot və hesabat işlərinin aparılmasının asanlaşdırılması və operativ nəzarətin təmin edilməsi və s.

Eyni zamanda, kənd təsərrüfatı sahəsinə yeni informasiya sisteminin tətbiqi formalaşacaq ki, bu sistemin aktivliyi məhsulların rəqabət qabiliyyətliyinin artırılmasına bilavasitə təkan verəcək.

İnkişaf etmiş xarici ölkələrdə məhz kənd təsərrüfatı məhsullarının alqı-satqısı ilə əlaqədar İnternetdə çoxlu sayda aktiv "ticarət meydançaları" fəaliyyət göstərir ki, bu da fermerlərə nəinki öz ölkələrində, həmçinin xaricdə də partnyorlar tapmağa və səmərəli işgüzar münasibətlər qurmağa imkan verir. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanda hələlik bu sahədə fəaliyyət göstərən saytların sayı azdır və kifayət qədər fəal deyildir. Buna görə də, hesab edirik ki, aqrar sektorda biznesin inkişafına təkan vermək məqsədilə Kənd Təsərrüfatı və Rabitə, Nəqliyyat və Yüksək Texnologiyalar Nazirliklərinin dəstəyi ilə aqrar bazarın bütün iştirakçılarının tələb və potensialı nəzərə alınmaqla, kənd təsərrüfatı məhsullarının İnternetdə aktiv ticarətinə imkan verən elektron resurslar yaradılmalıdır. Bu sahədə operativliyi və müxtəlifliyi təmin etmək məqsədilə kənd təsərrüfatı məhsullarının ayrı-ayrı çeşidləri, fermerlərin və istehsalçıların ixtisaslaşdığı sahələr üzrə veb səhifələrin yaradılması məqsədəuyğundur.

Ölkəmizdə demək olar ki, hər kəsin mobil telefon istifadəçisi olduğunu nəzərə alaraq Kənd Təsərrüfatı və Rabitə, Nəqliyyat və Yüksək Texnologiyalar Nazirliklərinin dəstəyi, həmçinin ölkədə fəaliyyət göstərən mobil operatorların iştirakı ilə kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan fermerlərin istifadəsi üçün aşağıdakı yenilikləri reallaşdırmaq mümkündür:

- abunəlik xidməti əsasında sms vasitəsilə fermerlərin kənd təsərrüfatı məhsullarının bazar qiymətləri, həmçinin hava proqnozları və digər meteoroloji hadisələr haqqında əvvəlcədən məlumatlandırılması;
- yuxarıda qeyd olunan onlayn ticarət saytlarına mobil telefon vasitəsilə girişinin təmin olunması;
- "mini fermer kompüteri" və ya planşetlərin yaradılması, kənd təsərrüfatı məqsədli proqramların yazılması və fermerlər üçün əlçatan olmasının təmin edilməsi;

- fermerlərin pulsuz əlaqə yaradaraq rastlaşdıqları problemlər, yaranan suallarla bağlı müraciət edə biləcəkləri "Alo Fermer" tipli qısa nömrəli telefon xidmətinin yaradılması.

**Müəllifin dissertasiyanın elmi nəticələrinə dair aşağıdakı elmi əsərləri çap olunmuşdur**:

1. "Kənd təsərrüfatında biznesin inkişafında informasiya texnologiyalarından istifadənin və elektron kommersiyanın rolu" – "Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 27-28 iyun - 2012, s. 528-531.
2. "Yeni informasiya texnologiyalarından istifadənin kənd təsərrüfatı üçün kadrların hazırlanmasında rolu" - Kooperasiya elmi-nəzəri jurnal. № 2 (29) - 2013, s. 137-142.
3. "Kənd təsərrüfatı məhsullarının elektron ticarəti" - Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 91 illiyinə həsr olunmuş "Sivil bazar iqtisadiyyatı münasibətlərinin inkişaf istiqamətləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 2014, s. 408-412.
4. "Azərbaycanda kənd təsərrüfatının inkişafının əhəmiyyəti və bu sahədə İKT-nin tətbiqinin inkişaf perspektivləri" – "Regional iqtisadi siyasət və kooperasiya münasibətlərinin inkişafı" mövzusunda beynəlxalq elmi-praktiki kofransın materialları. Bakı, 22 noyabr 2014, s. 712-715.
5. «Особенности и перспективы внедрения ИКТ и электронной коммерции в аграрном секторе Азербайджана» - Экономика и предпринимательство. № 12 (ч.2), 2014, s. 816-818.
6. "Aqrar sektorda İKT-dən istifadənin elmi texniki tərəqqinin nailiyyətlərinin tətbiqinin müasir vəziyyətinin təhlili" - Azərbaycan Aqrar Elmi. Elmi-nəzəri jurnal. № 5, 2016, s. 149-152.
7. "Aqrar sektorda İKT-dən istifadə üzrə beynəlxalq təcrübə və Azərbaycanda tətbiqi imkanları" - Kənd təsərrüfatının iqtisadiyyatı elmi-tədqiqat institutunun elmi əsərləri. Bakı – 4, 2016, s. 130-133.
8. "Azərbaycanın kənd təsərrüfatında biznesin inkişafı üçün İKT-nin real tətbiqi istiqamətləri" - Azərbaycan Aqrar Elmi. Elmi-nəzəri jurnal. №1, 2017, s. 134-136.

**Мансимзаде Ильгар Акиф оглу**

**Направления развития бизнеса в сельском хозяйстве на основе использования информационных технологий**

## РЕЗЮМЕ

Диссертация состоит из вступления, трех глав, заключения и списка использованной литературы.

Во вступлении обосновывается актуальность темы, выражаются цели и задачи основных положений, комментируются теоретические и практические значение научных исследований.

В первой главе под названием «Теоретико-методологические основы применения электронного бизнеса и коммерции на основе использования ИКТ в аграрном секторе» изучается международный опыт в этой области, а также рассматривается методология оценки эффективности и основные социально-экономические аспекты применения ИКТ.

Во второй главе под названием «Анализ современного состояния использования ИКТ в организации бизнеса в сельском хозяйстве Азербайджана» анализируется осуществленные в годы независимости в нашей стране аграрные реформы в аграрном секторе и их социально-экономические результаты, выясняется современное состояние бизнеса в организации эффективного использования кадрового потенциала в этой области и в применении ИКТ.

В третьей главе под названием «Направления совершенствования организации бизнеса в сельском хозяйстве благодаря применению ИКТ и электронной коммерции» рассматривается возможность эффективной организации бизнеса и управления в аграрной сфере, повышение конкурентоспособности и стимулирование экспорта, а также приоритетные направления и перспективы использования ИКТ в обеспечении продовольственной безопасности.

В заключении по пунктам были истолкованы основные направления исследований, проведенных в разделах диссертационной работы и были выдвинуты выдвинуты соответствующие рекомендации и предложения.

**Mansimzade Ilgar Akif**

**Directions of business development in agriculture on the basis of use of information technologies**

## SUMMARY


The thesis consists of an introduction, three chapters, conclusion and list of used literature.

In the introduction, the relevance of the topic is substantiated, the goals and objectives of the main provisions are expressed, the theoretical and practical significance of scientific research is commented upon.

The first chapter, entitled "Theoretical and methodological foundations for the application of e-business and commerce through the use of ICT in the agricultural sector", examines international experience in this field, and also examines the methodology for assessing efficiency and the main socio-economic aspects of the application of ICT.

The second chapter, entitled "Analysis of the current state of ICT use in the organization of business in agriculture in Azerbaijan" analyzes the agrarian reforms carried out in the country in the country's agrarian sector and their socio-economic results, reveals the current state of business in organizing effective use of human resources in this area and in the application of ICT.

The third chapter, entitled "Directions for improving the organization of business in agriculture through the use of ICT and e-commerce", considers the possibility of effective organization of business and management in the agrarian sector, enhancing competitiveness and stimulating exports, as well as priorities and prospects for using ICT in ensuring food security.

In conclusion, the points were interpreted the main directions of research conducted in the sections of the dissertation work and put forward the relevant recommendations and suggestions.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**МАНСИМЗАДЕ ИЛЬГАР АКИФ ОГЛУ**

# НАПРАВЛЕНИЯ РАЗВИТИЯ БИЗНЕСА В СЕЛЬСКОМ ХОЗЯЙСТВЕ НА ОСНОВЕ ИСПОЛЬЗОВАНИЯ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ

**5312.01 «Отраслевая экономика»**

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание научной степени
доктора философии по экономике

**Баку - 2017**